# Seminar-müşavirə

Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti «Mehmanxana və ictimai iaşə müəssisələrinin yanğın təhlükəsizliyi» mövzusunda Qəbələ şəhərində seminar-müşavirə keçirmişdir.

Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti 2015-ci il birinci Avropa Yay Oyunlarının respublikamızda keçirilməsi ilə əlaqədar mədəniyyət və turizm obyektlərinin yanğın təhlükəsizliyi ilə bağlı keçirdiyi qabaqlayıcı tədbirlər çərçivəsində yanğına qarşı təbliğat xarakterli maarifləndirmə işlərini davam etdirir.

Xidmətin yanğına qarşı təbliğat şöbəsinin və Şimal-Qərb Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin təşkilatçılığı ilə növbəti maarifləndirmə tədbiri Qəbələ şəhərində keçirilmişdir. Mehmanxanalar və ictimai iaşə müəssisələrinin yanğın təhlükəsizliyi mövzusunda keçirilən seminarı Dövlət Yanğın Nəzarəti Xidmətinin Şimal-Qərb Regional Dövlət Yangın Nəzarəti İdarəsinin rəis əvəzi, daxili xidmət mayoru Qüdrət Əzimov açaraq mədəniyyət və turizm obyektlərinin yanğın təhlükəsizlik tələblərinə uyğunluğunun yoxlanılması, aşkar edilmiş nöqsanların vaxtında aradan qaldırılması istiqamətində Fövqəladə Hallar Nazirliyinin həyata keçirdiyi məqsədyönlü işlər haqqında seminar iştirakçılarını məlumatlandıraraq bildirmişdir ki, qarşıdan gələn böyük idman tədbirində yanğın təhlükəsizliyinin etibarlı şəkildə təmin olunması üçün bütün zəruri işlər həyata keçirilir.





Seminarda DYNX-nin Yanğına qarşı təbliğat şöbəsinin təlimatçısı Nizami Fərəcov "Mehmanxanaların və ictimai iaşə müəssisələrinin yanğın təhlükəsizliyinin təmin olunmasında başlıca vəzifələr" mövzusunda çıxış edərək təyinatından asılı olmayaraq bütün binaların elektrik qurğuları, şəbəkələri və işıqlandırıcılarının mövcud tələblərə tam cavab verməli olması, bütün elektrik quğuları qısa qapanmalardan və yangın törədə bilən digər qeyri-normal vəziyyətlərdən müdafiə olunması, qaz cihazlarından təlimata uyğun düzgün istifadə edilməməsi səbəbindən insan itkisi və xəsarət alması ilə nəticələnən partlayış, yanğın, zəhərlənmə kimi bədbəxt hadisələrin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər həyata keçirilməsindən, yanğına qarşı su təchizatı xətlərinin saz vəziyyətdə olması və yanğının söndürülməsi üçün tələb olunan su sərfi normasının tələblərinin ödənməsinin daim təmin olunması, ilkin yanğınsöndürmə vasitələrinin saz vəziyyətdə saxlanılması, təxliyyə yollarında qarderoblar və bufetlər quraşdırılması, nahar zallarının divarlarını və pəncərələrin pərdələrini yanar və yandıqda zəhərləyici olan sintetik materiallarla bəzənməsinin yolverilməzliyi, ictimai iaşə müəssisələrində kütləvi tədbirlərin (yeni il, Novruz bayramı şənliklərinin, banketlərin, toyların və s.) keçirilməsinə ən azı 2 köçürmə çıxış yollarının mövcud olduğu zaman icazə verildiyi haqqında danışmışdır.

Yanğın təhlükəsizliyi ilə ələqədar fikir mübadiləsi aparılmış, mehmanxana və ictimai iaşə müəssisələrinin işçilərinə yanğın təhlükəsizliyinə zidd halların aradan qaldırılması üçün müvafiq tapşırıqlar verilmişdir.

Tədbirdə "Mehmanxanalarda yanğın təhlükəsizliyi qaydaları" adlı slayd nümayiş etdirilmiş, yeni ilkin yanğınsöndürmə vasitəsi olan avtomatik yanğınsöndürmə topundan istifadə qaydaları əyani şəkildə göstərilmiş, yanğın təhlükəsizliyi qaydalarını təbliğ edən buklet və "Mehmanxanaların yanğın təhlükəsizliyi" adlı yaddaş kitabçası seminar iştirakçılarına paylanmışdır.

**FHN DYNX-nin yanğına qarşı təbliğat şöbəsi.**

# Bahar töhfələri, bahar gözəlləmələri

## Gəlib yaz ayları

**(Əvvəli 7-ci səhifədə).**

Dağların yaxasında hələ talalar qar gizləyirdi. Qarın ömrü də indi bənövşənin yaşı qədər olmuşdu. Bunun dalısıycan qaranquşun müjdəsi, sığırçının çığırtısı, hop-hopun, bülbülün, anadilin oxuması gəlirdi. Ağaclar indi əlini açıb elə bil yazdan ruzu diləyir, torpaqdan təpər, bərəkət arzulayırdılar. Yaz bağ-bağatın, insanların nurlu dünyasına havadan, sudan, torpaqdan qapı açırdı. İndilər insan oğlunun qanına bir azcana da yaz qarışıb axırdı. Bunçu da torpaqla cəngə girmək, el varına sahman vermək, torpağın birini beş eləmək hünəri vardı insan oğlunda.

Yazın havasına insanların köylündə söz göyərir, insan oğlunun arzu-niyyəti çiçək açır.

## Ruzili il yazından bəllidi...

Yaz ta qədimlərdən arzu niyyət ayı olub. Ömrünü yaylaq-qışlaq köçlərində keçirmiş Hümbət baba ta ayaqlaşammırdı. İnəyin biri də elə köç üstə balalamışdı. Köçnən ayaqlaşammayan buzovu götürüb qoymuşdular xurcunun bir gözünə, o biri gözünə də Hümbət babanı qoymuşdular ki, köç ləngiməsin. Dəvənin çiynində yırğalana-yırğalana gedirdilər. Bir dar keçiddə Hümbət baba bir dərənin dibinə, bir də göyün qübbəsinə göz yetirdi. Sora da həsrət-həsrət buzovu oxşayıb qayıtdı ki, bircə ölməyəydim, ay ala buzov, gələn yazı görəydim, səni də yekələndirib eləyəydim öküz, sora kotana qoşub yer sürəydim. Ta heç dərdim olmazdı, ay ala buzov!..

Babalarımız yazın aynasından baxıb ilin xeyir-bərəkətini görüblər. Bar-bəhərin hesabın çəkiblər. Onçu da deyiblər ki, ruzulu il yazından bəllidi.

# 1 Aprel–müxtəlif ölkələrdə

Avropada və bir sıra Asiya ölkələrində aprelin 1-i gülüş, zarafat günü kimi qeyd olunur. Bu günü Böyük Britaniyada «Səfehlər Günü», Fransada isə «Aprel balığı Günü» adlandırırlar. Məsələ burasındadır ki, əvvəllər Fransada yeni il bayramı məhz aprelitn 1-də qeyd olunurdu. Həmin gün insanlar bir-birlərini təbrik edər və hədiyyə olaraq təzə balıq göndərərdilər. Lakin XVI əsrdən etibarən kralın fermanı ilə yeni il dekabrın 31-i yanvarın 1-i günlərində bayram edilməyə başlanıldı. Lakin «Aprel balığı Günü» də unudulmamışdı. Həmin gün fransfızların gülüş gününə çevrilmişdi.

Qədim zamanlarda bir çox ölkələrdə ildə bir dəfə-məhz aprelin 1-də itaətsizlik bayramı keçirilirdi. Həmin gün adamlar cəzasız olaraq öz hökmdarlarını lağa qoya, gündəlik davranış qaydalarını poza bilər, öz mənfi emosiyalarını söndürə bilərdilər. Eyni zamanda Səfehlər kralı və ya zarafatlar kralı təyin edər, şənlənər, lətifələr söyləyərdilər. «Səfehlər Günü»ndə maska geyinmək qayda idi. Çünki belə etdikdə daha təhlükəsiz halda «xüliqanlıq etmək» mümkün idi.

Bizim ölkəmizdə isə bu gün daha çox insanların bir-birlərini aldatması ilə müşayiət olunur. Özü də bundan heç kəs incimir. Amma hamı çalışır ki, aprelin 1-i günü aldanmasın. Lakin bu, çox az adamlara müyəssər olur.

**«Qəbələ».**

# Elan

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 may 1998-ci il tarixli 9 nömrəli qərarla Mirzəbəyli kənd sakini Yusifov Nizami Lətif oğlunun və ailə üzvlərinin adına verilmiş JN-0025 nömrəli (kodu 40613018) **Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün** etibarsız sayılr.

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon Təhsil Şöbəsinin kollektivi şöbənin əməkdaşı **Nüsrət Nuriyevə,** bacısı

**SARIYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon Təhsil Şöbəsinin kollektivi şöbənin əməkdaşı **Aslan Şirazova,** əzizi (qaynanası)

**GÜLNİŞİN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Peşə Məktəbinin kollektivi iş yoldaşları **Nazir Qurbanova,** anası

**ŞAMAMA QURBANOVANIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Bum qəsəbə sakini Emin Baratoğlu ailəsi ilə birlikdə qohumları **Əlibaba, Eynulla** və **Əflatun Məmmədovlara,** bibiləri

**LALƏZAR XANIMIN**

vəfatı münasibətilə dərin hüznlə başsağlığı verir.

---

"Qəbələ" qəzetinin kollektivi iş yoldaşları **Aslan Cəlilova**, yaxın qohumu

**GÜLBARƏ CƏLİLOVANIN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.